

“Azərbaycan xalqının özünü, öz dövlətini qoruya bilən əsgərləri, zabitləri, ordusu var”.

# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 2 sentyabr 2023-cü il №66 (2778) https://mod.gov.az Qiymәti 30 qəpik


## Prezidentin Mətbuat Xidmətinin Məlumatı

*Avqustun 29-da Fransa Respublikasının Prezidenti Emmanuel Makron Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.*

Telefon danışığı əsnasında regiondakı vəziyyət, Ağdam-Xankəndi və Laçın-Xankəndi yollarının açılması məsələsi müzakirə olunub.

Dövlətimizin başçısı bildirib ki, Ağdam-Xankəndi yolunun istifadəsinə məqsədyönlü şəkildə Ermənistan və onun Azərbaycanın Qarabağ bölgəsində yaratdığı və dəstəklədiyi qondarma rejim tərəfindən süni əngəllər yaradılır və bundan siyasi manipulyasiya məqsədilə istifadə edilir.

Azərbaycan Prezidenti qeyd edib ki, Ermənistan və qondarma rejim Beynəlxalq Qırmızı Xaç Komitəsinin vasitəçiliyi ilə Ağdam-Xankəndi yolu ilə yüklərin daşınması barədə əldə olunmuş ilkin razılaşmadan imtina edib. Həmçinin Ermənistan rəhbərliyi Azərbaycan tərəfi ilə razılaşdırmadan dövlət sərhədi istiqamətində humanitar təyinatlı olduğunu iddia etdiyi yüklər gətirib ki, burada məqsəd siyasi möhtəkirlikdir.

Dövlətimizin başçısı Azərbaycanın Qarabağın erməni əhalisinin təmsilçilərinin reinteqrasiya məsələlərini müzakirə etmək üçün paytaxt Bakıya və Azərbaycanın digər şəhərlərinə dəvət etdiyini, ancaq onların bundan da imtina etdiklərini və məqsədyönlü şəkildə vəziyyətin guya humanitar gərginlik xarakteri daşıdığını təqdim etməyə çalışdıqlarını bildirib. Prezident İlham Əliyev qeyd edib ki, Ağdam-Xankəndi yolu açıldıqdan sonra Azərbaycanın gömrük və sərhəd rejimi qaydalarına riayət etməklə Laçın-Xankəndi yolundan istifadə edilə bilər.

Eyni zamanda, Prezident İlham Əliyev bu gün Azərbaycan Qızıl Aypara Cəmiyyətinin xətti ilə həmin əraziyə ərzaq yüklərinin çatdırılması üçün avtomobil karvanının yola düşdüyünü qeyd edib.

Prezident Emmanuel Makron vəziyyətin sabitləşdirilməsi və mövcud gərginliyin aradan qaldırılması üçün Fransanın da öz tərəfindən töhfə verməyə hazır olduğunu bildirib, Fransanın və Azərbaycanın aidiyyəti qurumlarının təmaslarının davam etdirilməsini təklif edib.

*Təlim*

# Vətən müharibəsi Zəfər tariximizdir!



Son 30 ildə Azərbaycanın həlli vacib əsas məsələlərindən biri Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunması idi. Ərazilərimizin separatçı qüvvələr tərəfindən işğalı, bir milyondan çox qaçqın və məcburi köçkünlərimizin öz doğma yurdlarından ayrı düşməsi, hər bir azərbaycanlının düşmənə olan nifrətinin alovlanması ilə nəticələnmişdi. Xalqımız doğma yurdlarına dönəcəyinə həmişə inanırdı, çünki ərazi bütövlüyümüzün bərpası bizim şərəf məsələmiz idi. Uzun müddət nəticəsiz qalan danışıqlar, dünyanın aparıcı ölkə, beynəlxalq qurum və təşkilatlarının ikili standartlara yanaşması və nəticəsiz danışıqlara üstünlük verməsi yalnız ədalətin bərqərar olunmasında itirilmiş zaman oldu.

Azərbaycan xalqının səbrinin sonsuz olmadığını Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev çıxışlarında dəfələrlə vurğulamışdı. Nəhayət, hər bir azərbaycanlının qəlbində nisgilə çevrilmiş Qarabağ həsrətinə 27 sentyabr 2020-ci ildə əkshücum əməliyyatı ilə başlayan haqq savaşında son qoyuldu. Hər günü bir ömrə bərabər olan 44 günlük Vətən müharibəsindən günlərlə, aylarla, hətta illərlə belə danışmaq olar. O günləri ifadə etmək üçün sözlər kifayətsizdir. Əsas olan tarixi ədalətin bərpası idi ki, bunu da Azərbaycan əsgəri canı və qanı bahasına təmin etməyi bacardı.

İkinci Qarabağ müharibəsi Böyük Qələbə ilə başa çatdıqdan sonra Azərbaycan Ordusunun daha da qüdrətlənməsinə yönəlik fəaliyyətlər bu gün də uğurla davam etdirilir. Belə ki, şəxsi heyətin döyüş hazırlığının yüksəldilməsi, maddi-texniki təminatın gücləndirilməsi, arsenalımızın müasir standartlara cavab verən silah və texnikalarla zənginləşdirilməsi bu gün dövlət rəhbərliyi tərəfindən qarşıya qoyulan əsas tapşırıqlardandır. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığı ilə Azərbaycan Ordusunun döyüşaparma və özünümüdafiə qabiliyyətinin artırılması məqsədilə bu gün ordumuzun dünyanın aparıcı orduları sırasında olan qardaş Türkiyə ordusunun modelinə inteqrasiyası istiqamətində də mühüm işlərə imza atılır. Görülən işlərdən biri də Azərbaycan Ordusunda yeni komando (əməliyyat) bölmələrinin yaradılmasıdır ki, bu bölmələrdə xidmət edən hərbi qulluqçular Türkiyədə və ölkəmizdə təşkil olunan təlim kurslarını uğurla başa vurduqdan sonra xidmətlərini komando olaraq davam edirlər. Sevindirici haldır ki, bu gün ordumuzun sıralarında minlərlə gənc komando olaraq Vətənə olan borclarını şərəflə yerinə yetirirlər.

Quru Qoşunlarının "N" hərbi hissəsindəyik. Şəxsi heyət "Həyəcan" siqnalı ilə qaldırıldıqdan və zəruri hərbi təchizatını götürdükdən sonra hərbi avtomobillərlə şərti əməliyyat rayonuna doğru yola düşdülər. Təlimin plan-ssenarisinə əsasən şərti düşmən tərəfindən törədilən təxribatın qarşısını almaq, terror qruplaşmalarını zərərsizləşdirmək, onları ələ keçirmək və digər mühüm tapşırıqlar yerinə yetiriləcəkdi. İlk öncə zabit Vüsal Abbasəliyevlə həmsöhbət olduq. "Komando ordumuzun daxilində hədəfə birbaşa istiqamətlənmiş ən önəmli bölmələrdən biridir. Komandolar ən çətin və yenilənmiş hərbi təhsili dərindən mənimsəmiş hərbi qulluqçulardan təşkil olunur. 44 günlük haqq savaşımız başa çatdıqdan sonra, real döyüş təcrübəsi qazanmış hərbçilərimiz öz nəzəri və praktiki biliklərini artırmaq üçün komando kurslarında iştirak edib, öz peşəkarlıqlarını yüksəldiblər. Məlumdur ki, İkinci Qarabağ müharibəsindən sonra mühüm tapşırıqların, düşmən təxribatının qarşısının alınması fəaliyyətlərinin icrasında komandolar yüksək peşəkarlıq nümayiş etdirib. Komando necə olmalıdır? Komando operativ, çevik, dəqiq qərarvermə qabiliyyətiylə yanaşı, yüksək fiziki və mənəvi-psixoloji hazırlığa malik olmalıdır. Əsl komando çətin relyefdə və iqlim şəraitində dözümlü olmalı, günün istənilən vaxtında əməliyyat tapşırıqlarını yerinə yetirməyə hazır olmalı və bacarmalıdır.

Onu da qeyd edim ki, bölməmizin şəxsi heyətinin atəş, taktiki, fiziki və mənəvi-psixoloji hazırlığı daim nəzarətdə saxlanılır. Bunun üçün də bölmənin şəxsi heyəti iştirak etdiyi müxtəlif miqyaslı təlimlərdə, çöl dərslərində, idman yarışlarında qarşıya qoyulmuş tapşırıqları yerinə yetirirlər. Azərbaycan Ordusunun komando bölmələrinin döyüşaparma qabiliyyətinin yüksəldilməsi istiqamətində həyata keçirilən tədbirlər planlı şəkildə davam etdirilir. Bizlər də tabeliyimizdəki şəxsi heyətin təcrübəli, bilikli və yüksək döyüş ruhuna malik fərd kimi formalaşmasında əlimizdən gələni əsirgəmirik. Çünki hər bir komandirin üzərinə düşən vəzifə, tabeliyindəki hərbçilərin yüksək peşəkarlıq nümayiş etdirərək uğur qazanmasını təmin etməkdir", - deyən zabit fikrini tamamladı.

Söhbət əsnasında öyrəndim ki, Vüsalın atası (ehtiyatda olan polkovnik-leytenant) Azər Abbasəliyev və qardaşı (baş leytenant) Bahəddin Abbasəliyev də hərbçidirlər.

Gənc zabitlə təlim tapşırıqlarının icrasını izlədik. Bölmənin şəxsi heyəti qarşıya qoyulan tapşırıqların icrasını peşəkarlıqla yerinə yetirdi. Bu da onların yüksək döyüş hazırlığından xəbər verirdi. Komandolar çətin relyefli ərazidə manelər zolağının keçilməsi, terror qruplaşmalarına zərər vurmaq və onları ələ keçirmək üzrə tapşırıqları yerinə yetirdilər. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Elcan Hüseynov keçirilən məşqin məqsədini bizim diqqətimizə çatdırdı. "Bildiyiniz kimi, komandoların təlimləri çətin və müxtəliftipli olurlar. Qabaqcıl təcrübələri nəzərə alaraq, təşkil olunan dərs və məşğələlərdə, təlim və toplantılarda hər bir komando nəfəri öz ixtisas biliklərinin həm nəzəri, həm də praktiki incəliklərinə yiyələnir. Hədəfi aşkaretmə və vəziyyətin qiymətləndirilməsinə əsasən planlaşdırma fəaliyyəti nəzərdən keçirilir və tapşırıq icra olunur. Hazırkı təlim-məşqin keçirilməsində əsas məqsəd komando bölmələrinin döyüş hazırlığını yüksəltmək məqsədilə şəxsi heyətin taktiki vərdişlərini təkmilləşdirməkdir. Komando olmaq insandan polad iradə, dözümlülük və yüksək fiziki bacarıq tələb edir. Biz komando heyəti olaraq komandirlərimizin rəhbərliyi altında müxtəlif hava şəraitində, çətin relyefə uyğun qurulmuş təlim-məşq komplekslərində tapşırıqları icra edirik. Çünki real döyüş şəraitində döyüşaparma qabiliyyətinə təsir edən amillər məhz yuxarıda sadalanan şərtlərdir", - Elcan fikrini tamamladı. Müsahibim 44 günlük haqq savaşının da iştirakçısı olan real döyüş təcrübəsinə malik hərbi qulluqçularımızdandır. Döyüşlər zamanı nümayiş etdirdiyi igidliyə görə, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

**(Ardı 4-cü səhifədə)**

# Azərbaycan Respublikası müdafiə nazirinin Türkiyəyə işgüzar səfəri






Türkiyənin Zəfər Bayramı münasibətilə keçiriləcək silsilə tədbirlərdə iştirak etmək məqsədilə qardaş ölkəyə işgüzar səfər edən Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Ankara şəhərində Heydər Əliyev Parkını ziyarət edib.












Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin parkdakı abidəsi önünə əklil qoyulub, hörmət və ehtiram nümayiş etdirilib.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovun Türkiyədə işgüzar səfəri davam edir.

Səfər çərçivəsində general-polkovnik Zakir Həsənov növbəti buraxılış mərasimində iştirak etmək üçün Türkiyə Respublikasının Quru Qoşunları Ali Hərbi Məktəbinə gedib.

Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülərin, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun və digər rəsmilərin də iştirak etdiyi tədbirdən öncə məktəbin "Şəhidlər qapısı"nda azərbaycanlı və türkiyəli şəhid məzunlarının adları əks olunan lövhələrin qarşısında xatirə fotosu çəkdirilib.







Təntənəli mərasimdə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan çıxış edərək məzunları buraxılış münasibətilə təbrik edib.

* * *

Qardaş ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyənin Zəfər Bayramı münasibətilə Ankara şəhərində keçirilən təntənəli mərasimdə iştirak edib.

Beştəpə Milli Konqres və Mədəniyyət Mərkəzində keçirilən tədbirdə Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan açılış nitqi ilə çıxış edib.

Təntənəli mərasimdə qardaş ölkənin Zəfər Bayramını tərənnüm edən musiqi nömrələri təqdim olunub.

* * *

Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov qardaş ölkəyə işgüzar səfəri çərçivəsində rəhbərlik etdiyi nümayəndə heyəti ilə birgə Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün mavzoleyini - Anıtqəbri ziyarət edib.

Müdafiə naziri, Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov və digər qonaqlar Mustafa Kamal Atatürkün məzarı önünə əklil qoyaraq, xatirəsinə ehtiram nümayiş etdiriblər.

General-polkovnik Zakir Həsənov "Xatirə kitabı"na ürək sözlərini yazıb.

* * *

Türkiyədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Gülər ilə görüşüb.

Əvvəlcə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyində təntənəli qarşılanma mərasimi olub, hər iki ölkənin müdafiə nazirləri fəxri qarovulun önündən keçiblər. Azərbaycan və Türkiyənin Dövlət Himnləri səsləndirilib. Protokola uyğun olaraq "Şərəf kitabı" imzalanıb.

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədovun da iştirak etdiyi görüşdə hər iki qardaş və dost ölkələrin dövlət başçılarının səmimi münasibətlərinin digər sahələrə olduğu kimi, hərbi əməkdaşlıq sahəsinə də müsbət təsir etdiyi xüsusi vurğulanıb.

Azərbaycan və Türkiyə respublikaları arasında qarşılıqlı inam, etimad və dəstəyə əsaslanan əməkdaşlığın bundan sonra da uğurla inkişaf etdiriləcəyinə əminlik ifadə olunub. Ölkələrimiz arasında strateji müttəfiqliyin dostluq və qardaşlıq münasibətləri üzərində qurulduğu qeyd edilib.

Görüşdə hərbi, hərbi-texniki, hərbi-təhsil və digər sahələrdə əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib, həmçinin bu istiqamətdə görülən işlərin daha da genişləndirilməsinin vacibliyi bildirilib.

* * *

Türkiyənin Zəfər Bayramının 101-ci ildönümü münasibətilə keçirilən silsilə tədbirlərdə iştirak etmək üçün müdafiə naziri general-polkovnik Zakir Həsənovun qardaş ölkədə işgüzar səfəri davam edir.

General-polkovnik Zakir Həsənov avqustun 31-də Türkiyə Respublikasının Ali Hərbi Dənizçilik Məktəbinin və Ali Hərbi Təyyarəçilik Məktəbinin məzunlarının buraxılış mərasimlərində iştirak edib.

**(Ardı 3-cü səhifədə)**

# Azərbaycan Respublikası müdafiə nazirinin Türkiyəyə işgüzar səfəri







(Əvvəli 2-ci səhifədə)

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan hər iki buraxılış mərasimində çıxış edərək məzunları təbrik edib.

Sonra məzunlara diplomlar təqdim olunub.

Qeyd edək ki, hərbi məktəbləri müvəffəqiyyətlə bitirən azərbaycanlı məzunlara diplomları general-polkovnik Zakir Həsənov təqdim edib.

* * *

Türkiyədə işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənov Eskişehirdə 1-ci Aviasiya bazasının komandiri general-mayor Ertan Uzun ilə görüşüb.

Görüşdə hərbi, hərbi təhsil sahələrində əməkdaşlıq və qarşılıqlı maraq doğuran bir çox məsələlərə dair ətraflı fikir mübadiləsi aparılıb.

Qarşılıqlı hədiyyələr təqdim edildikdən sonra birgə xatirə şəkli çəkdirilib.

Daha sonra general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının milli müdafiə naziri cənab Yaşar Güler ilə birgə 2023-2024-cü uçuş təlim ilinin açılış mərasimində iştirak edib.

Uçuş əmri verildikdən sonra qonaqlar qardaş ölkənin hərbi aviasiya vasitələrinin uçuşlarını izləyiblər.



Sonra general-polkovnik Zakir Həsənov Ankaraya gəlib. Burada Türkiyə Respublikası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ordu generalı Metin Gürak ilə görüşüb.

Görüşdə iki qardaş ölkənin orduları arasında hərbi əməkdaşlığın inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra məsələlər müzakirə olunub.

Sonra hər iki qardaş ölkənin müdafiə nazirləri Ankarada keçirilən "Texnofest" Aerokosmik və Texnologiya festivalında iştirak ediblər.

Türkiyə Respublikasının Prezidenti cənab Rəcəb Tayyib Ərdoğan festivalda çıxış edərək iştirakçıları salamlayıb.

"Texnofest" Aerokosmik və Texnologiya festivalı izləyicilər tərəfindən böyük maraqla qarşılanıb.

# Bakıda Türkiyənin Zəfər Bayramı və Silahlı Qüvvələr Günü qeyd edilib







*Avqustun 30-da Türkiyənin Azərbaycandakı səfirliyində qardaş ölkənin Zəfər Bayramı münasibətilə rəsmi qəbul təşkil edilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycanın və Türkiyənin Dövlət Himnləri səsləndirilib.

Rəsmi qəbulda dövlət və hökumət nümayəndələri, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, hərbi attaşelər, beynəlxalq təşkilatların təmsilçiləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

İstiqlal marşı səsləndirildikdən sonra Türkiyənin ölkəmizdəki səfiri Cahit Bağçı Prezident Rəcəb Tayyib Ərdoğanın 30 Avqust - Zəfər Bayramı münasibətilə təbrik məktubunu oxuyub.

Səfir türk xalqının və Türkiyə Silahlı Qüvvələrinin Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi Zəfər qazandığını qeyd edərək ölkəsinin yeni 100 ilə inamla qədəm qoyduğunu bildirib.

Türkiyənin son illər inkişaf edərək dünyada böyük güc mərkəzinə və söz sahibinə çevrildiyini vurğulayan diplomat ölkəsinin mühüm beynəlxalq məsələlərin həllində fəal iştirak etdiyini qeyd edib.





Cahit Bağçı Türkiyənin getdikcə gücləndiyini, müdafiə sənayesi sahəsində inkişafının 80 faizə çatdığını və dünyada böyük söz sahibinə çevrildiyini diqqətə çatdırıb. "İşğaldan azad edilən torpaqlara Böyük Qayıdışın baş verdiyi bir zamanda Zəfərimizin 101-ci ildönümünü qeyd etmək qürur verir. Türkiyə Azərbaycanla Ermənistan arasında münasibətlərin normallaşmasını, sülh sazişinin imzalanmasını dəstəkləyir. Türkiyə və Azərbaycan hər zaman sülhün tərəfdarıdır", - deyə türkiyəli diplomat vurğulayıb.

Müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-polkovnik Kərim Vəliyev qardaş türk xalqını və Türkiyə Silahlı Qüvvələrinin bütün şəxsi heyətini Zəfər Bayramı münasibətilə təbrik edərək, bu möhtəşəm qələbənin Türkiyənin şanlı tarixinin ən parlaq səhifələrindən biri olduğunu bildirib.

Azərbaycan ilə Türkiyə arasında münasibətlərin ən yüksək səviyyədə olduğunu vurğulayan general-polkovnik Kərim Vəliyev əlaqələrin bu səviyyəyə çatmasında Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın müstəsna rolunu qeyd edib.

Ölkələrimiz arasındakı tarixi, dini və mədəni əlaqələrin hərbi sahədə əməkdaşlığımızın inkişafı üçün yeni imkanlar yaratdığını diqqətə çatdıran Kərim Vəliyev bildirib ki, iki ölkə orduları arasında Baş qərargahlar səviyyəsində Quru Qoşunları, Hərbi Hava Qüvvələri, Hərbi Dəniz Qüvvələri, Xüsusi Təyinatlı Qüvvələr və Milli Müdafiə Universitetinin iştirakı ilə keçirilən təlim, döyüş hazırlığı, hərbi təhsil və digər tədbirlərin sayının artırılması nəzərdə tutulub.

Türkiyənin Zəfər Bayramının qardaş ölkənin zəngin tarixinin ən şərəfli səhifələrindən biri olduğunu qeyd edən general-polkovnik Kərim Vəliyev ölkələrimiz arasında dostluq əlaqələrinin daha da genişlənməsinin əhəmiyyətini qeyd edib.

Azərbaycan Ordusunun Türkiyə Silahlı Qüvvələri modelinə uyğunlaşdırılması istiqamətində zəruri addımlar atıldığını diqqətə çatdıran general-polkovnik Kərim Vəliyev deyib: "Azərbaycan və Türkiyə orduları arasında əməkdaşlıq birliyimizi möhkəmləndirir, bölgədə sabitliyin qorunmasına və xalqlarımızın rifahının daha da yüksəldilməsinə xidmət edir. Əminəm ki, iki qardaş ölkənin orduları arasında əməkdaşlıq bundan sonra da uğurla inkişaf edəcək".

Sonda Zəfər Bayramı münasibətilə Türkiyənin milli müdafiə naziri Yaşar Gülerin təbrik məktubu və film nümayiş olunub.

# Şəxsi heyətin döyüş və sosial-məişət şəraiti daim diqqət mərkəzindədir



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin diqqət və qayğısı nəticəsində ordu quruculuğu üzrə şəxsi heyətin xidməti, sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində böyük islahatlar aparılır, ordunun maddi-texniki təminatı daha da gücləndirilir, müasir standartlara cavab verən hərbi infrastrukturlar qurulur. Yaradılan bu cür şərait gənclərin orduya qarşı münasibətini tamamilə dəyişir. Azərbaycan gəncləri belə güclü və yüksək səviyyədə təminatı olan ordunun əsgəri olmaq, Vətənimiz qarşısında övladlıq borcunu həvəslə yerinə yetirməyə can atırlar. Ordu sıralarında xidmət edən şəxsi heyət isə gündən-günə döyüş, atəş, fiziki və mənəvi-psixoloji hazırlıqlarını artırır.

Müdafiə Nazirliyinin rəhbər heyəti işğaldan azad edilmiş ərazilərdə dislokasiya olunan hərbi hissələrdə xidmət edən hərbi qulluqçularla mütəmadi olaraq görüşür, onların qayğıları ilə maraqlanır və şəxsi heyət üçün yaradılan şəraitlə tanış olur.

Ordumuzda xidmət edən hərbi qulluqçuların xidməti-döyüş və sosial-məişət şəraitinin daima yaxşılaşdırılması onların mənəvi-psixoloji vəziyyətində, eləcə də döyüş ruhunun yüksək səviyyədə saxlanılmasında mühüm rol oynayır. Qeyd edək ki, Müdafiə Nazirliyinin rəhbərliyi bu istiqamətdə görülən işlərin planlı şəkildə davam etdirilməsinə, həmçinin şəxsi heyətə hər zaman diqqət və qayğı ilə yanaşılmasına xüsusi önəm verir.

Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında orduda aparılan islahatlar nəticəsində Azərbaycan Ordusunun maddi-texniki təminatı inkişaf edir, silah arsenalı daha da zənginləşir, xidməti döyüş fəaliyyətinin yüksək səviyyədə təmin edilməsi məqsədilə tədbirlər görülür, eləcə də əsgərlərin sosial-məişət şəraiti daha da yaxşılaşdırılır.

Döyüş növbətçiliyi aparan şəxsi heyət göstərilən yüksək diqqət və qayğıya görə Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevə və Müdafiə Nazirliyinin rəhbərliyinə öz minnətdarlığını bildirir.

**"Azərbaycan Ordusu"**

## Müdafiə Nazirliyinin məlumatı

Sentyabrın 1-i səhər saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən bölmələri Azərbaycan Ordusunun Kəlbəcər istiqamətində yerləşən mövqelərini müxtəlif çaplı atıcı silahlar, minaatanlar, artilleriya qurğuları və zərbə PUA-larından atəşə tutmaqla bölgədə vəziyyəti gərginləşdirir.

Bundan başqa, Ermənistan tərəfi Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətindəki mövqelərinə əlavə döyüş texnikası və canlı qüvvə cəmləşdirir.

Ermənistan tərəfi növbəti təxribatlar üçün zəmin yaratmaq məqsədilə dezinformasiya xarakterli məlumatlar yayır və beynəlxalq ictimaiyyətdə yanlış fikir formalaşdırmağa çalışır.

Bildiririk ki, yaranmış gərginliyə və onun fəsadlarına görə bütün məsuliyyət Ermənistanın hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

* * *

Ermənistan silahlı qüvvələrinin bölmələri Basarkeçər rayonunun Zod istiqamətində yerləşən atəş mövqelərindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu istiqamətində yerləşən mövqelərini minaatanlardan atəşə tutub.

Bölmələrimiz tərəfindən zəruri cavab tədbirləri görülüb.

## Heydər Əliyev adına Hərbi İnstitutda Türkiyənin Zəfər bayramı ilə bağlı tədbir keçirildi



Heydər Əliyev adına Hərbi İnstitutda Türkiyənin Zəfər Bayramının 101-ci ildönümünə həsr edilən tədbir keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidməti xəbər verir ki, tədbir açıq elan olunduqdan sonra Ulu Öndərlər Heydər Əliyev və Mustafa Kamal Atatürkün, eləcə də şəhidlərin ruhu bir dəqiqəlik sükutla yad edilib. Hərbi orkestrin müşayiəti ilə Azərbaycan və Türkiyə respublikalarının Dövlət himnləri ifa edilib.

Tədbirdə çıxış edənlər Mustafa Kamal Atatürkün komandanlığı altında qazanılan möhtəşəm tarixi Zəfərin türk xalqının hərb tarixinə yazılan ən şərəfli səhifələrdən biri olduğunu vurğulayıblar. Türk ordusunun tarix boyu düşmənlərinə qarşı qətiyyətlə savaşaraq igidlik, qəhrəmanlıq nümayiş etdirdiyi, döyüş meydanında hər zaman hünər göstərərək şanlı qələbələrə imza atdığı tədbir iştirakçılarının diqqətinə çatdırılıb.

"30 avqust Zəfərinin hekayəsi" adlı qısametrajlı film nümayiş olunduqdan sonra hərbi institutun kursantları tərəfindən şeirlər səsləndirilib.



Sonda Heydər Əliyev adına Hərbi İnstitutun Hərbi orkestrinin müşayiəti ilə Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri Türkiyənin Zəfər bayramını tərənnüm edən mahnı və marşlar ifa ediblər.

**(Əvvəli 1-ci səhifədə)**

# Vətən müharibəsi Zəfər tariximizdir!



Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Samir Hümmətov da İkinci Qarabağ müharibəsində iştirak etmiş və nümunəvi xidməti ilə fərqlənən hərbçilərimizdəndir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Zəngilanın azad olunmasına görə", "Ağdamın azad olunmasına görə" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif edilib.

"Komando olmaq, cəsur olmaqdır, məğlubedilməz olmaqdır, qalib olmaqdır. Qalib Azərbaycan Ordusunun sıralarında xidmət etmək qürurvericidir. Vətən müharibəsi bizim Zəfər tariximizdir. Bu tarixin bir parçası olmaq mənim yaşam müddətimdə həyatımın ən böyük məfhumudur. Çünki qazanılan qələbə ilə uzun illər işğalda olan torpaqlarımızı azad etdik, şəhidlərimizin qisasını aldıq, doğma yurdlarından uzaq düşmüş soydaşlarımızın qəlbindəki Vətən həsrətinə son qoyduq. Doğma torpaqlarımızın işğaldan azad olunmasında canını qurban vermiş şəhidlərimizi ehtiramla anırıq. Hər birimiz 44 günlük haqq savaşında yüksək döyüş ruhu ilə irəlilədik. Biz irəlilədikcə mənfur düşmən geriləyirdi. Hər günü bir tarix olan Vətən müharibəsi Azərbaycan əsgərinin ədalət mübarizəsi idi. Döyüş meydanında olanların döyüş ruhu, xalqımızın duası, Ali Baş Komandanın qətiyyəti ilə qazandığımız Böyük Qələbə bütün dünyada səs saldı. Çünki 30 ilə yaxın torpaqlarımızı işğalda saxlayan düşməni məhv etmək üçün Azərbaycan əsgərinə cəmi 44 gün vaxt lazım oldu. 44 gün bir insan üçün qısa müddət ola bilər, lakin bir döyüşçü üçün savaşda zaman amili yoxdur. Əmr, tapşırıq var və onun icrası. Komandirlərimizin bizə böyük ruh yüksəkliyi aşılaması, bizi qələbəyə ruhlandırması, bizi döyüş meydanında məğlubedilməz döyüşçüyə çevirdi. Hər birimiz irəliləmək, tarixi yurd yerlərimizdən düşməni təmizləmək barədə düşünürdük. Şükürlər olsun ki, bu gün həmin Vətən torpaqlarında üçrəngli bayrağımız dalğalanır. Bu, Azərbaycan əsgərinin gücünün göstəricisidir. Ədalət nümunəsidir. Bizə atababalarımızdan miras qalan Vətənin hər qarışı uğrunda qan tökülüb, can verilib. Bu günün Vətən müdafiəçiləri olaraq da üzərimizə düşən ən böyük vəzifə sələflərimizdən bizə qalan əmanəti göz bəbəyimiz kimi qorumaqdır", - Samir Hümmətov dedi.

Təlimdə fəal iştirak edən hərbi qulluqçularımızdan biri də müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Davud Qurbanov idi. Davud da İkinci Qarabağ müharibəsi iştirakçısıdır və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamları ilə "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə", "Cəbrayılın azad olunmasına görə" medalları ilə təltif olunub. Üzərinə düşən məsuliyyəti dərindən dərk edən Davud söhbətə başladı: "Komando adını daşımaqdan şərəf duyuram. Peşəmə və içdiyim Hərbi Anda sadiqəm. Vətənim Azərbaycana, onun xalqına və Ali Baş Komandana bağlıyam. Üzərimə düşən məsuliyyəti də dərindən anlayıb öz hərbi biliklərimi və bacarıqlarımı təlim, məşq və məşğələlərdə artırıram. Biz komandolar havada, suda, quruda, bir sözlə, Vətən hüdudlarının hər bir nöqtəsində onu qorumağı qarşımıza məqsəd qoymuşuq. Biz qoruyuruq ki, gələcək nəsil onu bizdən təhvil alsın. Qoruyuruq ki, xalqımız firavan yaşasın. Vətəni qoruyaq ki, çiçəklənsin. Bayrağımız daim zirvələrdə olsun. Xalqımız bilsin ki, ərazi bütövlüyümüzün keşiyində inamla dayanırıq.

**Kapitan**
**Fuad CƏFƏROV**
**"Azərbaycan Ordusu"**
**fotolar C.CƏFƏROVUNDUR**

## Ermənistan silahlı qüvvələri zərbə PUA-sı tətbiq edib

Sentyabrın 1-i səhər saatlarında Ermənistan silahlı qüvvələri bölmələrinin Basarkeçər rayonunun Zod yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən açılan atəş nəticəsində Azərbaycan Ordusunun hərbi qulluqçusu Tağıyev Məhəmməd Ramiz oğlu yaralanıb.

Qarşı tərəfin təxribatı nəticəsində yaralanan hərbi qulluqçumuza dərhal ilkin tibbi yardım göstərilib və o, hərbi tibb müəssisəsinə təxliyə edilib.

Hazırda qeyd olunan istiqamətdə mövqelərimizin atəşə tutulması davam edir. Bölmələrimiz tərəfindən cavab tədbirləri görülür.

Bildiririk ki, Ermənistan tərəfinin törətdiyi təxribatın nəticələrinə görə bütün məsuliyyət məhz bu ölkənin hərbi-siyasi rəhbərliyinin üzərinə düşür.

* * *

Ermənistan silahlı qüvvələrinin Basarkeçər rayonunun Zod istiqamətindəki bölmələri tərəfindən Azərbaycan Ordusunun Kəlbəcər rayonu ərazisində yerləşən mövqelərinə qarşı zərbə PUA-sı tətbiq edilib.

Nəticədə daha iki hərbi qulluqçumuz yaralanıb.

Qeyd olunan istiqamətdə bölmələrimiz tərəfindən qətiyyətli cavab tədbirləri görülüb.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Şəhidin anım mərasimi keçirildi





*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində İkinci Qarabağ müharibəsi şəhid zabiti, Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Əliyev Anar Vaqif oğlunun xatirəsinə həsr olunmuş anım mərasimi keçirildi. Mərasimdə şəhidin ailə üzvləri, yaxınları, dostları, xidmət və döyüş yoldaşları iştirak etdilər.*

Əvvəlcə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Sonra tədbir iştirakçılarına şəhidin həyat və döyüş yoluna həsr olunan videoçarx nümayiş olundu. Tədbirdə iştirak edənlər Vətən Müharibəsi Qəhrəmanı polkovnik-leytenant Anar Əliyev haqqında ətraflı məlumatlarla çıxış etdilər.

Bildirildi ki, o, 1980-ci il avqustun 28-də Kəlbəcərdə müəllim ailəsində dünyaya göz açıb. 1995-1997-ci illərdə Cəmşid Naxçıvanski adına Hərbi Liseydə oxuyub. Məzun olduqdan sonra Bakı Ali Birləşmiş Komandirlər Məktəbində (indiki Heydər Əliyev adına Hərbi İnstitut) təhsilini davam etdirib.

Anası Səkinə xanım dedi ki, o, ailənin sonbeşiyi idi. "Uşaqlığından xarakterinə görə yaşıdlarından çox fərqlənirdi. Ermənilərin evlərimizi dağıdıb doğma torpaqlarımızı viran qoyması ona pis təsir edirdi. Bu qisası almaq arzusuyla hərbçi olacağını bildirdikdə atası əvvəlcə razı olmadı. Ancaq o, fikrindən dönməyərək hərb peşəsini seçib haqq yolunda qəhrəman oldu".

Şəhidin atası Vaqif Əliyev çıxışında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə onlara göstərilən diqqət və qayğıya görə təşəkkürünü bildirdi. "Oğlumun ailəsini ev və işlə təmin edərək övladlarının təhsili alması üçün əllərindən gələni etdilər. Bu gün Anar həyatda olmasa da, ruhu bizlərlədir. Allah bütün şəhidlərimizə rəhmət etsin".

"Atam bizə qarşı hər zaman diqqətli davranardı. Qardaşım Əlinin və mənim dərslərimizlə maraqlanaraq başa düşə bilmədiklərimizi izah etməyə çalışardı. İndi onu yanımızda görə bilməsək də, əminik ki, o, hər zaman bizim yanımızdadır.." - şəhidin qızı Nigar Əliyeva dedi.

Xidmət yoldaşı ehtiyatda olan general-mayor Teymur Eyyubov isə bildirdi ki, Anar cəsur və mərd zabit idi. "Naxçıvanda Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlı bölmələrində xidmət edirdi. 2018-ci ildə keçirilən və uğurla başa çatan Günnüt əməliyyatında o da iştirak edərək döyüşlərdə fərqlənmişdi. 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində ön cərgələrdə gedənlər sırasında Anar da var idi. O, bir sıra əhəmiyyətli qələbələrin əldə edilməsində tabeçiliyində olan şəxsi heyətlə fəal iştirak edib. Oktyabrın 21-də gərgin döyüşlər zamanı Anar şəhidlik zirvəsinə ucalır. Ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq sərəncamlarına uyğun olaraq o, "Vətən Müharibəsi Qəhrəmanı" adına, eləcə də "Xocavəndin azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medallarına layiq görüldü".

Daha sonra çıxış edənlər ehtiyatda olan polkovniklər Mirqiyas Rüstəmov, Etibar Məhərrəmov, ehtiyatda olan mayor Sahib Əsgərov ailəsinə başsağlığı verərək Allahdan rəhmət dilədilər.

Sonda yazıçı və şair Əli Həsənov şəhidə həsr etdiyi "Əfsanəvi kəşfiyyatçı" kitabını tədbir iştirakçılarına təqdim etdi. Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin solistləri vətənpərvərliyi tərənnüm edən mahnılar səsləndirdilər.

**Hüsniyyə NƏSİROVA**
**"Azərbaycan Ordusu"**

# Azərbaycanın Milli Qəhrəmanı Nadir Əliyevin xatirəsi anıldı



*Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzində "Şəhidlər ölməz, Vətən bölünməz" adlı silsilə tədbirlər davam edir. Növbəti tədbir Azərbaycanın Milli Qəhrəmanı baş leytenant Nadir Alış oğlu Əliyevə həsr olundu. Tədbirdə şəhidin ailə üzvləri, döyüş yoldaşları, dostları və başqa qonaqlar iştirak etdilər.*

Tədbirdə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin və ölkəmizin suverenliyi, müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himninin ifasından sonra mərasim açıq elan olundu.

Əvvəlcə şəhid qəhrəmanın həyatından və keçdiyi döyüş yolundan bəhs edilən qısametrajlı videoçarx nümayiş olundu.

Bildirildi ki, baş leytenant Nadir Əliyev 30 iyun 1962-ci ildə Ağdam rayonunun Əliağalı kəndində anadan olub. 1977-ci ildə Əliağalı kənd orta məktəbinin səkkizinci sinfini bitirdikdən sonra Bakı Politexnik Texnikumuna qəbul olub və texnikumu fərqlənmə ilə bitirib. 1982-1985-ci illərdə Bakı Dövlət Universitetinin hüquq fakültəsində, daha sonra Moskva şəhərində Dövlət Təhlükəsizlik Komitəsinin ali məktəbində təhsil alıb. 1991-ci ildə "leytenant" rütbəsində Bakıya qayıtdıqdan sonra təmsil olunduğu nazirlikdən Qarabağ bölgəsinə göndərilməsini qətiyyətlə xahiş edib. 1992-ci ildə Sırxavənd, Beşirlər, Qazançı, Qaraşlar, Kiçan kəndlərinin düşməndən azad edilməsində leytenant Nadir Əliyevin də xüsusi əməyi olub. Sırxavənd uğrunda gedən döyüşlərdə Azərbaycanın Milli Qəhrəmanı Şirin Mirzəyevin şəhid olması xəbərindən Nadir Əliyev çox sarsılır. O, son damla qanınadək düşmənlə döyüşəcəyinə söz verir.

Tədbirdə çıxış edən şəhid Milli Qəhrəmanın qardaşı Nazim Əliyev onun uşaqlıq və məktəb illərindən xatirələr danışdı: "Nadir zamanında orta məktəbdə ona dərs demiş müəllimlərini biliyi, fitri istedadı ilə heyrətləndirə bilib. Ağdamın müdafiəsində könüllülərlə erməni silahlı dəstələrinə qarşı qətiyyətlə döyüşüb. Nadir sanki Vətən üçün doğulmuşdu. O deyirdi ki, düşmən ancaq mənim meyitimin üstündən keçib Ağdama girə bilər. "Düşmənə heç vaxt Ağdama girməyə imkan verməyəm". 22 iyul 1993-cü ildə Nadirin şəhid olması barədə xəbər aldıq. Bir gündən sonra isə Ağdam işğal olundu".

Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə ölümündən sonra baş leytenant Nadir Alış oğlu Əliyev "Azərbaycanın Milli Qəhrəmanı" adına layiq görülüb.

"Zəfər yolu" kitabının müəllifi Azər Hacıbəyli bildirdi ki, Nadir haqqında ona ilk dəfə "Azərbaycan Bayrağı" ordenli, Əməkdar jurnalist Baxşeyiş Hətəmov deyib. Müəllif Nadir Əliyevin keçdiyi şərəfli döyüş və həyat yoluna nəzər salaraq onu əfsanəvi qəhrəman Mehdi Hüseynzadəyə bənzədib. Nadir bir neçə əcnəbi dil bilib. Onun fitri istedadı hər kəsi heyrətləndirib. Canından artıq sevdiyi Qarabağı, Ağdamı düşməndən müdafiə etmək üçün ermənilərə qarşı qətiyyətlə döyüşüb. Düşmən arxasına keçərək çoxlu silahlı qulduru məhv edib. Hətta bir neçə dəfə də erməni silahlısını əsir götürüb. Onun qəhrəmanlıqları gənclərə təbliğ olunacaq qədər önəmli olduğu üçün natiqi "Zəfər yolu" poemasını yazmağa ruhlandırıb.



Baş leytenant Nadir Əliyevin döyüş yoldaşları - Baxşeyiş Hətəmov, Ağalar Əliyev, Elşad Əliyev, Sücəddin Abdullayev və başqaları xalqımızın qəhrəman oğlu haqqında öz xatirələrini tədbir iştirakçıları ilə bölüşdülər.

Tədbirin sonunda Həzi Aslanov adına Ordu İdeoloji və Mədəniyyət Mərkəzinin gənc solistləri hərbi vətənpərvərliyi tərənnüm edən mahnılar ifa etdilər.

**Bəxtiyar ƏLİYEV**
**"Azərbaycan Ordusu"**

# Azərbaycan Ordusunun şəxsi heyəti ilə keçirilən ictimai-siyasi hazırlıq dərsi

## (İctimai-siyasi hazırlıq dərsinin qrup rəhbərinə kömək)

## **Mövzu:** Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasəti

**Suallar:**

**1. Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasətinin formalaşması tarixi.**

**2. XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə.**

### Ermənilərin əzəli Azərbaycan torpaqlarını erməniləşdirilməsi siyasətinin formalaşması tarixi

Yerləşdiyi coğrafi əhəmiyyətinə və enerji mənbəyinə görə "Avrasiyanın dayaq nöqtəsi" kimi xarakterizə olunan, eyni zamanda, tarixən geosiyasi maraqların toqquşduğu bölgə olan Cənubi Qafqaza əsrlər boyu imperialist güclər sahib olmağı hədəfləmiş və bu yolda təhlükəli və "sərfəli" silah kimi başlıca rol oynayan ermənilərdən istifadə etmişlər. Ermənilər ənənəvi olaraq həmişə özlərinə havadarlar tapmış, regionda yad qüvvələrin maraqlarına qulluq edərək, qonşularına xəyanət etmiş, bunun müqabilində isə özlərinə müxtəlif mükafatlar, yeni-yeni ərazilər, var-dövlət qazanmışdır.

"Böyük Ermənistan" yaratmaq xülyası ilə yaşayan erməni millətçilərinin xalqımıza qarşı apardığı soyqırımı və təcavüz siyasətinin iki yüz ildən artıq tarixi var. Bu mənfur siyasətin məqsədi azərbaycanlıları qədim torpaqlarından sıxışdırıb çıxarmaq, bu ərazilərdə erməni ideoloqlarının uydurduğu "dənizdən-dənizə Ermənistan" dövləti qurmaqdır. Bu məqsədlə mərhələlərlə həyata keçirilən terror və soyqırımı siyasətinin qanlı fəsadları təkcə böyük türk dünyasının deyil, bütün bəşəriyyətin başı üstünü qara kabus kimi bürüməklə əsrlər boyu bu vandalizmin qurbanı olmuş Azərbaycan xalqının qan yaddaşında dərin izlər buraxmışdır.

Çar imperiyası XVIII əsrin sonlarından Azərbaycanın Xəzəryanı torpaqlarını işğal etməyə başladı. XIX əsrin əvvəllərində Çar imperiyası I Pyotr ermənilərı Cənubi Qafqaza - Şimali Azərbaycan torpaqlarına köçürmək siyasətini həyata keçirməyə başlamışdır. Çar imperiyası tərəfindən ermənilərin XIX əsrin ilk qərinəsində Şimali Azərbaycan torpaqlarına köçürülməsində iki mərhələyə ayırmaq olar: 1801-1828-ci il Türkmənçay müqaviləsinədək olan dövr və Türkmənçay müqaviləsindən sonrakı ilk illər.

1801-1828-ci illərdə Çar imperiyası tərəfindən ermənilərin Şimali Azərbaycana köçürülməsi, əzəli Azərbaycan torpaqlarını erməniləşdirmək siyasəti torpaqlarımızın imperiya tərkibinə daxil edilməsi prosesi ilə paralel getmişdi. Çar Rusiyası 1804-cü ilin yanvarında ermənilərin də yaxından iştirakı ilə Gəncə xanlığını məğlub etdi. 1805-ci il mayın 14-də Qarabağ, 21-də isə Şəki xanlıqları ilə onların Çar Rusiyasının himayəsinə keçməsi haqqında Kürəkçay müqavilələri imzalandı. Dekabrda isə Şirvan xanlığı ilə belə bir müqavilə imzalandı. 1806-cı ildə Dərbənd, Quba və Bakı xanlıqları, 1813-cü ildə Talış xanlığı imperiyanın tərkibinə daxil edildi. Çar Rusiyası, eyni zamanda, Qacarlar dövləti ilə (1804-1813) apardığı müharibənin sonunda bağlanan Gülüstan müqaviləsinə əsasən, Naxçıvan və İrəvan xanlıqları istisna olmaqla, Şimali Azərbaycan torpaqlarını öz tərkibinə qatdı. Qafqazdakı rus qoşunlarının baş komandanı general P.D.Sisianov Gəncə, Qarabağ, Şəki, Şirvan və digər Şimali Azərbaycan torpaqlarına ermənilərin köçürülməsində xüsusi fəallıq göstərirdi. Bu hal Şəki (1819), Şirvan (1820) və Qarabağ (1822) xanlıqlarının ləğvindən sonra daha da geniş miqyas aldı.

1804-1813-cü illərdə Çar imperiyası - Qacarlar və elə həmin dövrdə gedən Rusiya - Osmanlı müharibəsi (1806-1812) Çar Rusiyasının Azərbaycan torpaqlarını öz tərkibinə daxil etmək planlarına son vermədi. 1826-cı ildə Çar imperiyası Qacarlar dövləti ilə yeni müharibəyə (1826-1828) başladı. Qeyd edilən müharibə Türkmənçay müqaviləsi ilə nəticələndi və həmin müqaviləyə görə, İrəvan və Naxçıvan xanlıqları da (210 min kv.km. ərazisi İrana, 130 min kv.km. ərazisi isə Rusiyaya) Çar Rusiyasının nəzarətinə keçdi. Osmanlı dövləti ilə Rusiya arasında aparılan 1828-1929-cu illər müharibəsinin sonunda isə Ədirnə sülh müqaviləsi bağlanıldı.

Müqavilələrə əsasən, Azərbaycanın ərazisi və xalqı iki yerə bölündü. Şimali Azərbaycan əraziləri süni bölgülərə məruz qalaraq Rusiyanın tərkibində müxtəlif inzibati hissələrə parçalandı. Ən son inzibati bölgüyə əsasən Azərbaycan - Bakı, Yelizavetpol, İrəvan quberniyaları və Zaqatala mahalına bölündü.

Ermənistanın 1988-ci ildən etibarən əsassız iddia irəli sürdüyü keçmiş "Dağlıq Qarabağ" ərazisi o vaxt Yelizavetpol quberniyasına daxil idi. İşğal etdiyi ərazilərdə müstəmləkə siyasətini həyata keçirən çarizmin istifadə etdiyi üsullardan biri digər xalqların regiona köçürülərək azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi idi. Yerləşdirmədə üstünlük ermənilərə verildi. Bu da səbəbsiz deyildi. Dövlətləri olmadığından, Şərqdə daim başqa hakimiyyət altında yaşayan, region xalqlarının psixologiyasını, dillərini yaxşı bilən, adət-ənənələrinə dərindən bələd olan, şəraitə daha tez uyğunlaşan və itaətkar ermənilər bu işə digərlərindən daha münasib idilər. 1828-1830 cu illərdə Cənubi Qafqaza Qacarlar (İran) dövlətindən 40 min və Osmanlı imperiyasından (Türkiyə) 90 minə yaxın erməni Yelizavetpol və İrəvan quberniyasında ən yaxşı torpaqlarda quberniyanın dağlıq hissəsi ("Dağlıq Qarabağ") və Göyçə gölünün sahillərində məskunlaşdırıldı.

Ermənilərin Azərbaycan ərazilərinə köçürülməsinin növbəti dalğası XIX əsrin ikinci yarısında oldu. Osmanlı dövlətinin ərazisində hökumət əleyhinə baş verən qiyam yatırıldıqdan sonra "Daşnaksütyun" və digər erməni təşkilatları tərəfindən daha 35-60 min erməni Şimali Azərbaycana yerləşdirildi. Əgər məskunlaşma nəticəsində 1873-cü ildə Yelizavetpol quberniyasında 100 min erməni yaşayırdısa, 1886-cı ildə onların sayı 259 min nəfərə çatdırıldı. Erməniləri yerləşdirməklə çarizm Cənubi Qafqazda etnik-milli ziddiyyətlərin, münaqişələrin və axıdılan qanların toxumunu səpdi. "Hnçak" (Zəng), "Daşnaksütyun" (İttifaq) və s. terror təşkilat və komitələri quruldu. Xəzər dənizi, Qara dəniz və Aralıq dənizi arasında tarixdə heç bir zaman olmayan "Böyük Ermənistan" ideyası ermənilər üçün uyduruldu. Mövqeləri möhkəmlənən ermənilər yerli xalqlara düşmən münasibəti bəsləyərək onları sıxışdırmağa başladılar. Sosial-iqtisadi, siyasi, milli və dini ziddiyyətlər yarandı.

Çar Rusiyasının himayəsi altında erməni dövlətinin yaradılması, həmçinin ermənilərin Qacarlar (İran) və Osmanlı (Türkiyə) dövlətlərindən qoparılan torpaqlara köçürülməsi təsadüfi hadisə olmayıb, erməni-rus münasibətlərinin qanunauyğun nəticəsi idi. Bu münasibətlərin əsasını yalnız ticarət əlaqələri deyil, başlıca olaraq Şərqin müsəlman dövlətlərinə, xüsusilə Türkiyəyə, XVIII əsrdən etibarən isə həm də Azərbaycana qarşı düşmənçilik münasibəti təşkil edirdi.

### XX əsrin axırlarında erməni separatçılığı. Ermənistan-Azərbaycan arasında mövcud olmuş münaqişə və tarixi ədalətin bərpası uğrunda mübarizə

Azərbaycan ərazilərinə ermənilərin yerləşdirilməsi XX əsrin əvvəllərində də davam etdirildi. 1904-1905-ci illərdə qonşu ölkələrdən 45 min erməni Cənubi Qafqaza gətirilərək məskunlaşdırıldı. Ermənilərin yerli əhaliyə nifrəti böhranlı anlarda açıq düşmənçiliyə çevrildi. 1905-1907-ci illər Rusiyada baş vermiş inqilabın gedişində çarizmin təhriki ilə erməni-azərbaycanlı qırğınları (İrəvan) törədildi. "Daşnaksütyun"un yaratdığı erməni xüsusi silahlı dəstələri Bakıda, Qarabağda və digər ərazilərdə azərbaycanlıların soyqırımlarını törətdilər.

Ermənilərin azərbaycanlılara məxsus torpaqlara yerləşdirilməsi və törətdikləri kütləvi qırğınlarda növbəti mərhələ Birinci Dünya müharibəsi illəri oldu. Çarizm müharibə illərində "Türkiyədə yaşayan qardaşlarının azad edilməsi" şüarı altında erməni silahlı dəstələrini Osmanlı ərazisi, Cənubi Azərbaycan və Cənubi Qafqazda formalaşdıraraq Rusiya ordusunun cərgələrinə qəbul etdilər. Bu dəstələr Anadoluda və Cənubi Azərbaycanda dinc türk əhaliyə qarşı kütləvi qırğınlar törətdilər. Müharibə illərində (1915) Türkiyədən gətirilmiş 100 min, İrandan 120 min erməninin Cənubi Qafqaza məskunlaşdırılması yenə də azərbaycanlılara məxsus torpaqlarda həyata keçirildi. Onlar əsasən Naxçıvan, Sürməli, Eçmiadzin, İrəvan və Yelizavetpolda yerləşdirilmişlər. 1915-ci ildə İrandan və Türkiyədən Eçmiadzinə köçürülən ermənilərin sayı 60 mindən çox idi. Həmin illərdə İrəvan quberniyasına 120 min, Şuşa və Cavanşir qəzalarına 25 min erməni yerləşdirildi.

1917-ci ildə Rusiyada baş vermiş Oktyabr inqilabı nəticəsində, milliyyətcə erməni olan Stepan Şaumyanın başçılıq etdiyi bolşevik hakimiyyəti Bakı quberniyasında hakimiyyəti ələ keçirmişdi. Erməni millətçiləri həmin vaxt etiraf edirdilər ki, Bakı Sovetinin ordusunun yalnız adı sovetlərin siyahısındadır, əslində, həmin ordu Erməni Milli Şurasına tabe idi. Belə vəziyyətdən istifadə edərək Bakı Soveti və Daşnaksütyundan olan erməni silahlı dəstələri 1918-ci ilin 30 mart və 3 aprel tarixləri arasında Bakı şəhərində və Bakı quberniyasının müxtəlif bölgələrində, eləcə də Quba, Xaçmaz, Lənkəran, Hacıqabul, Salyan, Zəngəzur, Qarabağ, Naxçıvan və digər ərazilərdə azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər. Bu dəhşətli soyqırımı nəticəsində 1918-ci il ərzində 40 minə yaxın azərbaycanlı qətlə yetirilmiş, on minlərlə insan itkin düşmüşdür.

Çar Rusiyasının süqutunun ardınca İrəvan quberniyasının ərazisində erməni dövləti yaradılmış, Ermənistanda və Azərbaycanda sovet hakimiyyəti qurulduqdan sonra bolşevik rejiminin əli ilə Azərbaycan torpaqlarının daha bir hissəsi, o cümlədən, Qərbi Zəngəzur, Qazax qəzasının dağlıq hissəsi və Naxçıvanın bəzi kəndləri Ermənistana verilmiş və nəticədə ermənilərin zəbt etdiyi ərazilər 9 min kv. km.-dən 29,8 min kv. km.-ə çatdırılmışdır.

Hal-hazırda Ermənistan adlandırılan ərazilərdə ata-baba torpaqlarında yaşayan yüz minlərlə azərbaycanlılara muxtariyyət verilmədiyi halda, Azərbaycan ərazisində sayı onlardan dəfələrlə az olan ermənilər üçün 1923-cü ildə keçmiş "Qondarma Dağlıq Qarabağ Muxtar Vilayəti" yaradıldı. Beləliklə, erməni millətçilərinin Azərbaycana qarşı gələcək ərazi iddiaları üçün meydan açılmış oldu və Cənubi Qafqazda baş verəcək yeni faciələrin əsası qoyuldu.

Azərbaycanlılar 1905-1906-cı, 1918-1920-ci illərdə olduğu kimi,1948-1953-cü illərdə də indiki Ermənistan ərazisindən məqsədyönlü şəkildə didərgin salınıb və deportasiya ediliblər. Yalnız 1948-1953-cü illərdə 150 mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki tarixi yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunub. Bu zaman onların bir hissəsi, xüsusilə qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi iztirablara dözməyərək həlak olublar.

Nəhayət, son sıxışdırma və təcavüz dalğası XX əsrin sonlarında başladı. 1988-1994-cü illərdə erməni millətçilərinin məskunlaşdıqları ərazilərdə "Böyük Ermənistan" yaratmaq istəkləri Azərbaycan xalqının əzəli torpaqlarından qovulmasına və kütləvi insan itkilərinə məruz qalması ilə nəticələndi. Əsrin əvvəllərində olduğu kimi, sonlarında da ermənilərin azərbaycanlılara qarşı ən qanlı cinayətlərdən biri, azərbaycanlıların kütləvi soyqırımını - Xocalı faciəsini törətdilər. Xocalı soyqırımı Ermənistanın Azərbaycana qarşı işğalçılıq müharibəsinin gedişində dinc azərbaycanlı əhaliyə qarşı törədilmiş soyqırımı cinayətlərinin ən dəhşətlisidir. Bundan əvvəl Bağanis-Ayrım, İmarət Qərvənd, Tuğ, Sələkətin, Axullu, Xocavənd, Cəmilli, Nəbilər, Meşəli, Həsənabad, Kərkicahan Qaybalı, Malıbəyli, Yuxarı və Aşağı Quşçular, Qaradağlı kəndlərinin işğalı zamanı həmin yaşayış məntəqələrinin dinc əhalisinin bir hissəsi qabaqcadan hazırlanmış plan əsasında xüsusi amansızlıqla qətlə yetirilib. Yalnız bunu qeyd etmək kifayətdir ki, Xocalı soyqırımından bir neçə gün əvvəl - 1992-ci il fevralın 17-də Xocavəndin Qaradağlı kəndində 80 nəfərdən çox azərbaycanlı kütləvi qırğına məruz qalıb.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tarixi torpaqlarımızın Ermənistan tərəfindən işğalı haqqında demişdir: "Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir... Azərbaycan öz torpaqlarını nəyin bahasına olursa-olsun, azad edəcəkdir".

Qüdrətli Azərbaycan dövləti, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin ətrafında yumruq kimi birləşən xalq 44 gün ərzində Ermənistan ordusunu darmadağın edərək, illərin həsrətini sonlandırdı, düşmənə sarsıdıcı zərbə vurdu və Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin illər öncə dediyi sözləri təsdiqlədi.

**İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsi**

# Ermənilər köhnə vərdişlərini yeni metodlarla davam etdirməklə genişmiqyaslı təxribatlara hazırlaşırlar

Son günlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Qarabağ iqtisadi rayonundakı qeyri-qanuni erməni silahlı dəstələrinin daha da aktivləşdiyi mətbuatda və sosial media platformalarında yayımlanan videomateriallarda açıq-aydın görünür.

Videomateriallarda ilk diqqət çəkən məqam odur ki, Azərbaycan Ordusunun keçirdiyi uğurlu əməliyyatlardan yetərincə dərs alan, lakin bundan düzgün nəticə çıxarmayan ermənilər növbəti geniş miqyaslı təxribatlara "uğurla" hazırlaşırlar. Fikrimcə, bu hazırlıq prosesinə əsas səbəb hələ də boş revanşist xülyalarla yaşayan bəzi ermənilərin xisləti, eləcə də xaricdə fəaliyyət göstərən erməni təşkilatlarının canfəşanlığıdır. Bölgədə sabitliyin təmin olunmasında maraqlı olmayan dairələrin bu məsələyə təsiri də mütləq nəzərə alınmalıdır. Çünki hayların (ermənilərin) Qarabağ iqtisadi rayonundakı dırnaqarası fəallığı bölgədə dayanıqlı sülhün və sabitliyin bərqərar olmasında maraqlı olmayan bəzi dairələrin də maraqlarına xidmət edir.

Bildiyimiz kimi, uydurma "artsax" məsələsi üçün erməni təşkilatları milyonlarla ianə toplayır. Lakin həmin pullar tam həcmdə "zavallı ermənilərə" çatmır. İanələr hesabına yığılan həmin pulları yeyib, üstündən su içdikdən sonra, külli miqdarda korrupsiya hallarını ört-basdır etmək və gözdən pərdə asmaq üçün erməni təşkilatları böyük işlər gördüklərini göstərmək məqsədilə "fəallıq" nümayiş etdirmək məcburiyyətindədirlər.

Həm də unutmaq olmaz ki, "artsax" məsələsi Ermənistanda hakimiyyət uğrunda mübarizədə daima ən effektli metod və "yağlı tikə" hesab edilir. Həmçinin Qarabağda yaşayan ermənilərin "dərdləri", siyasi mübarizədə erməni siyasətçilərin opponentlərini üstələmək üçün ən səmərəli və güclü kart olmuşdur.

Diqqət çəkən məqamlardan biri də odur ki, yayılan videomateriallardan aydın görünür ki, qeyri-qanuni erməni silahlı dəstələrinin tərtibləndiyi yerlərdə yaratdıqları bokslara, həmçinin Ermənistan silahlı birləşmələrinin qalıqları olan yerlərə çoxlu sayda tank, artilleriya qurğuları və müxtəlif təyinatlı digər döyüş texnikası cəmlənib. Bu da öz növbəsində separatçı rejimin və Ermənistan silahlı birləşmələrinin qalıqlarının irimiqyaslı təxribatlara hazırlaşdığına dəlalət edir.

Lakin videolarda əks olunanları izləyərkən ciddi düşünməyə sövq edən başqa məsələlər də var. Birincisi, üçtərəfli bəyanatın müddəalarının yerinə yetirilməsinə, yəni, qeyri-qanuni erməni silahlı dəstələrinin, eləcə də Ermənistan silahlı birləşmələrinin qalıqlarının tərksilah edilməsini və Qarabağ iqtisadi rayonundan çıxarılmasını təmin etmək vəzifəsi olan Rusiya sülhməramlı kontingentinin gözü qabağında bu qədər həcmdə döyüş texnikasını, silah-sursatı bir yerə cəmləşdirmək, yaxud yerdəyişmələr etmək necə mümkün olmuşdur? Doğrudanmı, onlar bu qədər texnikanın hərəkətini və ərazidə aparılan mühəndis-istehkam işlərini görmürlər? Yox, əgər görürlərsə, sülhməramlılar buna niyə və nəyə görə, hansı səbəblərdən göz yumurlar?

Maraqlısı odur ki, bütün bunlar sülhməramlıların gözü qabağında, hətta bəzən onların nəzarəti və müşayiəti altında həyata keçirilir. Mətbuatda və sosial şəbəkələrdə dəfələrlə izləyicilərə qanunsuz daşımalar həyata keçirən maşınların sülhməramlıların müşayiəti altında hərəkəti, həmçinin təsərrüfat işləri adı altında uzun müddətli atəş nöqtələri, fortifikasiya qurğuları yaradan və mühəndis-istehkam işləri aparan qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərini himayə etməsi barədə də videosüjetlər təqdim edilmişdir.

Məhz bu biganəliyin və qanunsuz hərəkətlərə qarşı tədbirlər görülmədiyinin nəticəsidir ki, son günlər Rusiya sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində fəaliyyət göstərən qeyri-qanuni erməni silahlı dəstələrinin və Ermənistan silahlı qüvvələrinin qalıqlarının daha da aktivləşdiyi müşahidə olunur. Belə ki, ermənilər döyüş mövqelərinin şəxsi heyət, silah-sursat baxımından gücləndirilməsini, eləcə də planlaşdırılmış şəkildə yeni müdafiə sədlərinin, səngərlərin, uzunmüddətli fortifikasiya qurğularının hazırlanması işini və əraziyə minaların basdırılması kimi təxribat xarakterli fəaliyyətlərini davam etdirirlər.

Bundan başqa, videolardan göründüyü kimi, qeyri-qanuni erməni silahlı dəstələrinin və Ermənistan ordusunun qalıqları Qarabağ iqtisadi rayonunun bir neçə yaşayış məntəqəsində, eləcə də bölmələrimizin mövqeləri ilə üzbəüz ərazilərdə müxtəlif təyinatlı döyüş texnikasını, xüsusilə də hava hücumundan müdafiə və radioelektron mübarizə vasitələrini yerləşdirir, maskalanma tədbirlərini icra edir, ehtiyat döyüş mövqeləri hazırlayır, həmçinin mülki əhalinin kütləvi şəkildə silahlandırılması və intensiv döyüş hazırlığı məşğələlərinin keçirilməsi üzrə də qanunsuz fəaliyyətləri həyata keçirirlər.

Videoları izləyərkən diqqət yetirməli olduğumuz daha bir məqam isə ermənilərin yaşayış məntəqələrindəki yaşayış evlərindən və mülki obyektlərdən hərbi məqsədlər üçün istifadə etməkdə davam etməsidir. Laçın yolunda sərhəd-buraxılış məntəqəsinin quraşdırılması ilə Azərbaycanın daşımalara və şərti dövlət sərhədində buraxılış rejiminə nəzarət etməsindən sonra ermənilər saxta "humanitar terror və "aclıq" şouları ilə dünya ictimaiyyətini bezdirməyə və beynəlxalq qurumların zəhləsini tökməyə başlayıblar. Lakin bu çirkin yolla nəsə əldə edə bilməyəcəyini anlayan ermənilər növbəti və "daha səmərəli" üsullara əl atıblar.

Videolardan görünür ki, ermənilər Vətən müharibəsində geniş istifadə etdikləri "taktikadan" bu gün də "uğurla bəhrələnmək" niyyətindədirlər. Heç kimə sirr deyil ki, ərazilərimizin işğalı zamanı orada qanunsuz məskunlaşan ermənilər indi fürsət düşdükcə həmin ərazilərdən qaçmağa çalışırlar. Qeyri-qanuni erməni silahlı dəstələri, Ermənistan ordusunun qalıqları isə tərk edilmiş və boş qalmış həmin evlərdən, habelə bəzi mülki obyektlərdən hərbi məqsədlər üçün geniş istifadə etməyə başlayıblar. Məqsəd isə təxribatlar zamanı mülki əhalidən və obyektlərdən sipər kimi istifadə etmək, həmçinin çirkin əməllərini ört-basdır etməyə nail olmaqdır.

Yuxarıda qeyd etdiyim faktlar yayımlanan videomateriallarda da aydın görünür. Belə ki, qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri müxtəlif artilleriya qurğularını və döyüş texnikasını mülki obyektlərin, eləcə də yaşayış evlərinin həyətində və ətrafında cəmləşdirərək atəş mövqeləri hazırlayırlar. Həmçinin dəstə üzvləri, eləcə də topların və döyüş maşınlarının heyət nəfərləri də "mülki şəxslər qismində" həmin evlərdə yerləşirlər. Burada ermənilərin niyyəti təxribatlar törətməklə Azərbaycan Ordusunun bölmələrini hərbi məqsədlər üçün istifadə olunan həmin mülki obyektlərdə yaradılmış atəş nöqtələrini və qeyri-qanuni erməni silahlı dəstələrin "mülki şəxs" qismində gizləndiyi evlərə zərbələr endirməyə təhrik və məcbur etməkdir. Sonra isə həmin ərazilərdən video görüntülər hazırlayaraq, Azərbaycan mülki obyektlərə, yaşayış binalarına atəş açır və "zavallı" ermənilərə divan tutur deyə şoular hazırlayaraq beynəlxalq qurumları aldatmaqla dünya ictimaiyyətində yanlış fikir və rəy formalaşdırmağa çalışmaqdır.

Azərbaycan fobiyadan əziyyət çəkənləri "ayağa qaldıran" Ermənistanın və separatçı rejimin saxtalıqlarla dolu "acından qırılırıq" şousunu ifşa edən foto və videolar da mətbuatda, eləcə də sosial platformalarda yer alıb. Təqdim olunan görüntülərdə ermənilərin bütün dünyaya "Xankəndi blokadadır, ermənilər aclıqdan əziyyət çəkirlər, qırılırlar" və "gensid"ə məruz qalıblar şousunun da saxta olduğu aydın görünür.

Yayılan materiallarda həm də açıq aydın görünür ki, bahalı və dəbdəbəli restoranlarda keyf məclisləri quran, həmçinin toylara bahalı maşınlarda təşrif buyuran "acından ölən", stolların üstünə düzülmüş bol naz-nemətlərdən yeyib harınlayan ermənilər elə toy keçirilən restoranın hovuzunda çimib əylənirlər.

Əgər həqiqətən Xankəndində aclıqdırsa və Azərbaycanın Qarabağ iqtisadi rayonunda məskunlaşan erməni əsilli sakinlər acından qırılırsa bəs onda belə dəbdəbəli toylar etmək və restoranlarda naz-nemətlərdən aşıb daşan stollar bəzəmək necə mümkündür?

Görünən o ki, "aclıqdan qırılırıq" deyən ermənilərin hay-küy salması heç bir etik normalara sığmayan şoudan və dünya ictimaiyyətini aldatmaq məqsədilə gözlərə kül üfürməkdən başqa bir şey deyildir. Dünya şahid olur ki, bütün bunlar, yalan və iftiralar uydurmaqla haray-həşir salan ermənilərin xislətini tam nümayiş etdirən saxta təbliğatdır.

Videoları izləyərkən diqqətimizi çəkən və fikrimizcə, ən əhəmiyyətli məqamlardan biri də döyüş texnikasının sayının çoxluğu və qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinin apardığı mühəndis-istehkam işlərinin miqyasıdır. Maraqlıdır, "acından ölən" və "blokadadan əziyyət çəkən", "yeməyə ərzaq tapa bilməyən" ermənilər külli miqdarda dəyəri olan döyüş texnikasını hansı pula, necə alıblar və indi o texnikaları hansı pullar hesabına saxlaya, istismar və təmir edə bilirlər? Nədənsə ermənilərə, qeyri-qanuni silahlı dəstələrə və separatçı rejimə himayədarlıq etməyə çalışan dairələr və regionda baş verən hadisələrlə bağlı reallığı əks etdirməyən açıqlamalar verən beynəlxalq qurumlar və ayrı-ayrı şəxslər bu faktla bağlı ədalətli mövqe nümayiş etdirmirlər.

Bu kimi qanunsuz və təhrikçi fəaliyyətlərin bölgədə gərginliyin artmasına, yeni qarşıdurmalara səbəb olacağı, sülh danışıqlarına və regionda sabitliyin bərqərar olmasına ciddi təhdidlər yaradacağı barədə Azərbaycanın haqlı tələblərinin dəfələrlə Ermənistan tərəfinə bildirilməsinə baxmayaraq, qeyri-qanuni erməni silahlı birləşmələrinin aktivliyi və Azərbaycan ərazilərində intensiv döyüş hazırlığı tədbirlərinin həyata keçirilməsi davam etməkdədir. Lakin beynəlxalq aləm belə qanunsuz hərəkətlərin qarşısının alınması məqsədilə heç bir tədbir görmək istəmir. Fikrimcə, bu da beynəlxalq aləmin bölgədə baş verən proseslərlə bağlı ikili standartlar sərgiləməsinin nəticəsidir.

Bütün bunları nəzərə alaraq belə bir nəticəyə gəlmək olar ki, Ermənistan bölgədə dayanıqlı sabitliyin təmin olunması məqsədilə sülh müqaviləsinin imzalanmasında, sərhədlərin demarkasiya və delimitasiyasında ya maraqlı deyil, ya da xarici qüvvələrin, havadarlarının təzyiqləri səbəbindən bu addımı atmaq iqtidarında deyil.

Hesab edirəm ki, istənilən halda ordumuz hadisələrin hansı istiqamətdə inkişaf etməsindən asılı olmayaraq ermənilərin gözlənilən təxribatlarının qarşısını almaq məqsədilə adekvat addımlar atmaq, hətta qabaqlayıcı tədbirlər görmək barədə əmrlərin icrasına daim hazır olmalıdır.

**İsa İSMAYILOV**
**ehtiyatda olan zabit,**
**hərbi jurnalist**

# Xəbərlər: hadisələr, faktlar

## Şimali Koreya Cənubi Koreyaya qarşı nüvə hücumu simulyasiyası həyata keçirib



Şimali Koreya Cənubi Koreyaya qarşı nüvə hücumu simulyasiyası həyata keçirdiyini elan edib.

Şimali Koreyanın Müdafiə Nazirliyi təlimlər çərçivəsində iki qısamənzilli taktiki ballistik raketin də buraxıldığı barədə məlumat yayıb. Təlimin düşmənlərə açıq mesaj məqsədi ilə keçirildiyi bildirilib.

Rəsmi Seul atılan ballistik raketlərin dənizə düşdüyünü açıqlayıb.

Qeyd edək ki, raket sınağı ABŞ və Cənubi Koreya ordularının 11 günlük birgə təlimi başa çatdıqdan bir gün sonra həyata keçirilib.

## ABŞ Böyük Britaniyada iki F-35A eskadronu yerləşdirəcək



ABŞ hakimiyyəti beşinci nəsil F-35A qırıcı-bombardmançılarının iki eskadrilyasını Böyük Britaniyanın şərqindəki Suffolk şəhərindəki Lakenheath bazasına yerləşdirməyi planlaşdırır.

Nüvə silahı daşımağa qadir F-35A qırıcı-bombardmançı təyyarələri Lakenheath bazasındakı F-15-ləri əvəz edəcək. F-35A qırıcıları daha uzun məsafə qət edir, daha funksionaldır və gizli texnologiya ilə təchiz olunub.

Məlumata görə, 54 qırıcı aviabazada bu ilin sonu və ya gələn il yerləşdiriləcək.

Nəşr qeyd edir ki, Böyük Britaniyada Amerika taktiki nüvə silahlarının mümkün yerləşdirilməsi ilə bağlı xəbərlər getdikcə artır.

Həmçinin bildirilib ki, Konqres ABŞ Hərbi Hava Qüvvələrindən 144 ABŞ hərbçisi üçün Lakenheath bazasında əlavə yaşayış binalarının tikintisinə 50 milyon dollar ayrılması barədə sorğu alıb.

## Almaniya Ukraynaya “Leopard 1A5” tankları göndərib



Almaniya avqustun 30-da Ukraynaya yeni hərbi yardım paketinin ötürülməsi barədə məlumat yayıb. Buraya 10 "Leopard 1A5" tankı daxildir.

Bu barədə Almaniya hökuməti məlumat yayıb.

Yeni paketə, həmçinin bir TRML-4D radarı, 16 "Vektor" pilotsuz kəşfiyyat sistemi, dörd HX81 tank daşıyıcısı və 13 milyondan çox atıcı silah sursatı daxildir.

Hökumətin bildirdiyinə görə, silah təchizatı təhlükəsizlik potensialının artırılması üçün Almaniya fondları tərəfindən maliyyələşdirilən sənaye ehtiyatlarından əldə edilib.

Xatırladaq ki, Ukrayna avqustun 24-də Almaniyadan "Patriot" hava hücumundan müdafiə sistemi, dron aşkarlama sistemi üçün raketləri də alıb.

## ABŞ “Abrams” tanklarının ilk partiyasını Tayvana gələn il təhvil verəcək



ABŞ "Abrams" tankının 38 ədəd olan ilk partiyasını Tayvana gələn il təhvil verəcək.

Bu barədə Tayvanın "Ziyu Shibao" qəzeti məlumat yayıb.

Məlumata görə, bu proqram 2025-ci ildə daha 42 tankın çatdırılmasını nəzərdə tutur və 28 belə döyüş maşınının son partiyası 2026-cı ildə təhvil veriləcək. Bu, "M1A2T"nin modifikasiyasıdır.

Adanın quru qoşunları artıq avtomobillərin döyüş istifadəsi və onlara texniki qulluq üzrə təlim keçmək üçün ABŞ-a göndəriləcək zabitlər qrupu yaradıb. Tayvana qayıtdıqdan sonra onlar silahlı qüvvələrdə hərbi təlimatçı olacaqlar.

Qeyd edək ki, 108 "Abrams" tankının Tayvana 2,2 milyard dollara satılması 2019-cu ildə ABŞ Dövlət Departamenti tərəfindən təsdiqlənib.

**AZƏRTAC-ın materialları əsasında**

# Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin kollektivi hərbi hissələrdə olub



Azərbaycan Respublikası müdafiə nazirinin təsdiq etdiyi tədbirlər planına əsasən, Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin hərbi hissələrdə keçirdiyi təbliğat-təşviqat, mədəni-kütləvi tədbirlər davam edir. Mərkəzin yaratdığı təbliğat-təşviqat qruplarının işğaldan azad edilmiş ərazilərimizdə dislokasiya olunan hərbi hissələrdəki çıxışları şəxsi heyət tərəfindən maraqla qarşılanır. Əsgərlərə konsert proqramları və müharibədən bəhs edən filmlər təqdim edilir.

Şəxsi heyətin mənəvi-psixoloji hazırlığının daha da yüksəldilməsi istiqamətində məqsədyönlü tədbirlər uğurla davam etdirilir.





Mədəni-kütləvi tədbirlər, müxtəlif idman yarışları, viktorinalar, mədəniyyət, incəsənət xadimləri ilə yaddaqalan görüşlər təşkil olunur. Keçirilən tədbirlər hərbi qulluqçuların mənəvi-psixoloji durumuna müsbət təsir göstərir və şəxsi heyət tərəfindən ruh yüksəkliyi ilə qarşılanır.

Tədbirlərin keçirilməsində məqsəd hərbi qulluqçularda vətənpərvərlik ruhunun yüksəldilməsi, Vətənə, xalqa, dövlətə və dövlətçiliyə sədaqət hissinin daha da artırılmasıdır. Sadaladığımız bu meyarlar 44 günlük Vətən müharibəsində ordumuzun gücünü, qüdrətini, vətənsevərliyini bütün dünyaya bir daha bariz şəkildə göstərmişdir.

Bu günlərdə yenə də Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin təbliğat-təşviqat qrupunun üzvləri işğaldan azad edilən ərazilərimizdə yerləşən hərbi hissələrdə Vətən müdafiəçiləri ilə yaddaqalan görüşlər keçirdilər. Hərbi qulluqçuların asudə vaxtlarının səmərəli və mənalı keçirilməsində yaxından iştirak etdilər.

Gəncə Qarnizonu İdeoloji və Mədəniyyət Mərkəzinin "Əsgərə məktub" layihəsi əsasında ordumuza dəstək olan vətəndaşlarımızın, Gəncə şəhər ictimaiyyətinin nümayəndələrinin, məktəblilərin və valideynlərin əsgərlərə ünvanladıqları məktubları onlara çatdırdılar. Əsgərlərə ünvanlanan məktublar hərbi qulluqçularımızda xoş təəssürat yaratdı və onlar tərəfindən sevinclə qarşılandı. Vətən keşiyində ayıqsayıq dayanan oğullar onlara göstərilən mənəvi dəstəyə və etimada görə hər kəsə öz minnətdarlıqlarını bildirdilər.



Əsgərlər də öz növbəsində valideynlərə, məktəblilərə xoş ovqat yaradan cavab məktubları ünvanladılar. Onlar məktublarda Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin və Müdafiə Nazirliyinin rəhbərliyinin göstərdiyi yüksək qayğı və diqqətdən söz açdılar. Bildirdilər ki, 44 günlük Vətən müharibəsində Zəfər qazanan və dünyanın ən güclü orduları sırasında yer tutan ordumuzda xidmət etmək onlar üçün böyük şərəfdir.

Sonra təbliğat-təşviqat qrupunun təşkil etdiyi konsert proqramında çıxış edən müğənni Arif Cəfərovun oxuduğu vətənpərvərlik mahnıları hərbi qulluqçularda xoş ovqat yaratdı.

Azərbaycan əsgəri adını uca tutan, Azərbaycan Mədəniyyət və İncəsənət Universitetinin məzunu Hüseyn Türkoğlu vətənpərvərlik mövzusunda yazdığı şeirlərini oxudu və ordumuzun sıralarında Vətənə xidmətdən qürur hissi keçirdiyini bildirdi.

**Mübariz MUSAYEV**
**"Azərbaycan Ordusu"**

# İdman

## Azərbaycan pauerliftinqçiləri dünya çempionatını səkkiz medalla başa vurublar




Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində gənclər və böyüklər arasında keçirilən dünya çempionatı başa çatıb.

Gənclər arasında keçirilən yarışda idmançılarımız altı qızıl və iki gümüş medala sahib çıxıblar.

Komandamızda Leyla Kərimova (+86 kiloqram) iki qızıl, Zəhra Dadaşova (55 kiloqram) iki qızıl, Rəsul Zəkiyev (80 kiloqram) iki qızıl, Talıb Zeynalov isə (+107 kiloqram) iki gümüş medal qazanıb.

## Taekvondoçumuz Beynəlxalq İdman Festivalında bürünc medal qazanıb



Rusiyanın Yekaterinburq şəhərində keçirilən Beynəlxalq Universitet İdman Festivalında taekvondoçumuz Adil Eyvazov bürünc medal qazanıb.

58 kiloqram çəki dərəcəsində çıxış edən idmançı yarımfinalda Rusiya təmsilçisi Vladimir Mısovla qarşılaşıb. Rəqibinə 0:2 hesabı ilə uduzan Eyvazov bürünc medalı aktivinə yazdırıb.

## Azərbaycanın üç parataekvondoçusu Qran-Pridə medal qazanıb




Fransanın paytaxtı Parisdəki parataekvondo üzrə dünya Qran-Prisində iştirak edən Azərbaycan təmsilçilərinin hər biri medal qazanıb.

Sabir Zeynalov (58 kiloqram), İmaməddin Xəlilov (70 kiloqram) və Əbülfəz Abuzərli (80 kiloqram) öz çəki dərəcələrində fərqləniblər.

Bürünc medal uğrunda görüşlərdə qalib gələn idmançılarımız fəxri kürsünün üçüncü pilləsinə qalxıblar.

Qeyd edək ki, yarış Paris-2024 Yay Paralimpiya Oyunlarına reytinq xalları qazandırır.

## "Qarabağ" UEFA Avropa Liqasında qrup mərhələsinə vəsiqəni təmin edib



UEFA Avropa Liqasının pley-off mərhələsində Bakıda "Qarabağ" və Sloveniyanın "Olimpiya" komandaları arasında cavab oyunu keçirilib.

Tofiq Bəhramov adına Respublika Stadionunda keçirilən qarşılaşma avqustun 31-i saat 20:00-da start götürüb. Oyunun 24-cü dəqiqəsində Ağdam təmsilçisi Toral Bayramov topu rəqib komandanın qapısından keçirib. 36-cı dəqiqədə isə "Olimpiya" komandasının oyunçusu Dioqo Pinto hesabı bərabərləşdirib. Oyunun ikinci hissəsində qapılara top vurulmayıb.

Beləliklə, Tofiq Bəhramov adına Respublika stadionunda Sloveniyanın "Olimpiya"sı ilə keçirilən cavab oyunu 1:1 hesabı ilə başa çatıb.

Bununla da, səfərdəki görüşdə rəqibini iki cavabsız qolla üstələyən "Qarabağ" Avropa Liqasında qrup mərhələsinə yüksəlib.

**AZƏRTAC-ın materialları əsasında**

*Maraq dünyamız*

# Pazırık kurqanları



Qədim türklərin Monqolustanda, Türküstanda, Qara dəniz sahillərində, Uralda, Altayda, Azərbaycanda və s. yerlərdə çoxlu maddi-mədəniyyət abidəsi vardır. Altay Respublikasının (keçmiş Dağlıq Altay Muxtar Vilayəti) indiki Ulaqan rayonu ərazisində Pazırık çölündən tapılmış və elm aləmində Pazırık kurqanları adı ilə tanınmış kurqanlar da bu qəbildəndir.

Kurqan mədəniyyəti (kurqan tipli dəfn mərasimi) qədim türklərə məxsusdur. Bu kurqanların ən qədim nümunələri Uralda tapılmış və onların yaşı dörd-beş min ildən də çoxdur. Pazırık kurqanlarının yaşı isə eramızdan əvvəl beşinci-dördüncü yüzilliyə gedib çıxır. Qazıntılar zamanı bu qəbirlərdə türk tayfa başçılarının, böyük bəylərin dəfn olunduğu aşkarlanmışdır. 1929, 1947, 1949-cu illərdə aparılan arxeoloji qazıntılar nəticəsində bu kurqanlardan ağac, dəri, xəz, dəmir məmulatları, geyim, köçəri atlı sakinlərin məişət əşyaları tapılmışdır. Kurqanların dərinliyi 4 metr, sahəsi 50 kvadrat metrdir.

Qədim türklər ölən igidin atını da özü ilə bərabər dəfn edirdilər. Bunu qəbirlərdəki at sümükləri də təsdiqləyir.

Pazırık kurqanlarından tapılmış ən dəyərli abidə donuşluqda qalmış xovlu xalçadır. "Hun xalçası" adlandırılan bu abidə dünyanın ən qədim xalça nümunələrindən olub, 24 türk tayfasının rəmzini əks etdirir. Xalça qədim türk mədəniyyətini və dünyagörüşünü əks etdirən maddi mədəniyyət abidəsi kimi son dərəcə qiymətlidir.

Pazırık kurqanlarından yundan toxunmuş parçalar, yun məmulatlarının tapılması qədim türklərin gön-dəri, yun, dəmir məmulatları hazırlamaqda mahir olduqlarını göstərir. Qəbirlərdən Çində istehsal olunmuş basma naxışlı ipək parçalar, çini qabların tapılması qədim türklərin iqtisadi-mədəni əlaqələrindən xəbər verir.

**"Azərbaycan Ordusu"**

Leytenant Nəzərov Yusif Xəqani oğluna məxsus MN № 0066738 nömrəli zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.


| Baş redaktorun müavini | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| mayor Məhəmməd NƏSİRLİ | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | kapitan Günay TAĞIYEVA | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi Nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 468 Nüsxə 4760 |